*Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyətinin 29.10.2018-ci il tarixli qərarı ilə təsdiq edilmişdir.*

# Vəkillərin elektron şəxsi kabineti və ondan istifadə

# Q A Y D A L A R I

## 1. Ümumi müddəalar

1.1. “Vəkillərin elektron şəxsi kabineti və ondan istifadə Qaydaları” (bundan sonra – Qaydalar) Azərbaycan Respublikası Vəkillər Kollegiyasının rəsmi internet səhifəsində (bundan sonra – Sayt) vəkillərin istifadəsi üçün nəzərdə tutulmuş, vəkillər və vəkil qurumları ilə Vəkillər Kollegiyasının Rəyasət Heyəti (bundan sonra – Rəyasət Heyəti) arasında məlumatların mübadiləsi, vəkil qurumları və fərdi qaydada fəaliyyət göstərən vəkillər tərəfindən illik statistik hesabatların və digər hesabatların, vəkillərin iştirak etdikləri tədris tədbirləri barədə məlumatların təqdim edilməsi, vəkillərin vəkil reyestrindəki məlumatlarına əlavə və dəyişikliklərin edilməsi, sayt və mətbu nəşrlərə məqalələrin təqdim olunması və bununla bağlı digər məsələləri tənzimləyir.

1.2. Bu Qaydaların 1.1-ci bəndində nəzərdə tutulan məqsədlərə xidmət edən, azərbaycan və ingilis dillərində tərtib edilmiş elektron şəxsi kabinet (bundan sonra – Kabinet) Rəyasət Heyəti tərfindən yaradılır.

1.3. Kabinetin məqsədi Rəyasət Heyəti və vəkillər arasında olan əlaqənin operativ, şəffaf, konfidensial şəkildə həyata keçirilməsi, vəkil reyestrində olan məlumatların aktuallığının təmin edilməsidir.

## 2. Kabinetdən istifadə zamanı vəkil və vəkil qurumlarının vəzifələri

2.1. Vəkil və vəkil qurumları Rəyasət Heyəti tərəfindən elektron şəxsi kabinet (bundan sonra – Kabinet) vasitəsilə göndərilmiş məlumatları müntəzəm olaraq yoxlamalı və müraciətlərə cavab verməlidir.

2.2. Vəkil və vəkil qurumunun Kabinetinə göndərilmiş məlumatlar vəkil və vəkil qurumları tərəfindən alınmış hesab olunur.

2.3. Vəkil bu Qaydaların 3.1-ci bəndində nəzərdə tutulmuş şəxsi məlumatlarında hər hansı bir əlavə və ya dəyişiklik olduğu halda, dərhal Kabinetdə bu barədə müvafiq əlavə və ya dəyişiklik etməlidir.

2.4. Vəkil tərəfindən bu Qaydaların 3.1-ci bəndində nəzərdə tutulmuş şəxsi məlumatlara edilmiş əlavə və dəyişikliklərin doğruluğuna və tamlığına, habelə bu Qaydaların 3.1.1-ci, 3.1.2-ci və 3.1.8-ci yarımbəndlərində nəzərdə tutulmuş məlumatları azərbaycan və ingilis dillərində daxil edilməsinə görə həmin vəkil məsuliyyət daşıyır.

2.5. Vəkil qurumlarının rəhbərləri və fərdi qaydada fəaliyyət göstərən vəkillər illik statistik hesabatı növbəti təqvim ilinin ilk 30 günü ərzində Kabinet vasitəsilə təqdim etməlidir.

2.6. Vəkillər öz peşə hazırlığı və ixtisaslarının artırılması məqsədi ilə iştirak etdikləri tədris tədbirləri ilə bağlı məlumatı tədbirin son günündən etibarən 5 iş günü ərzində Kabinet vasitəsilə təqdim etməlidir.

2.7. Bu Qaydaların 2-ci bəndi ilə nəzərdə tutulmuş öhdəliklərin yerinə yetirilməməsi, o cümlədən vəkil və vəkil qurumunun Kabinetinə göndərilmiş məlumatların vaxtında cavablandırılmaması vəkil və müvafiq vəkil qurumunun rəhbəri barəsində intizam icraatının başlanılması üçün əsasdır.

## 3. Kabinet vasitəsilə təqdim olunan fərdi məlumatlar

3.1. Kabinet vasitəsilə vəkillərdən aşağıdakı fərdi məlumatların tam və dəqiq təqdim olunması tələb olunur:
3.1.1. Vəkilin soyadı, adı və atasının adı;
3.1.2. Vəkilin fəaliyyət göstərdiyi ünvan;
3.1.3. Vəkilin elektron poçt ünvanı;
3.1.4. Vəkilin mobil əlaqə nömrəsi;
3.1.5. Vəkilin şəkili;
3.1.6. Vəkilin bildiyi xarici dillər;
3.1.7. Vəkilin ixtisaslaşdığı hüquq sahələri (dörddən çox olmamaq şərtilə);
3.1.8. Vəkilin hüquqşünaslıq ixtisası üzrə aldığı ali təhsil (təhsil aldığı illər, ali təhsil müəssisəsinin adı, aldığı təhsilin dərəcəsi, ixtisas)
3.1.9. Vəkilin nailiyyətləri;
3.1.10. Vəkilin göstərdiyi hüquqi xidmətlər.
3.2. Bu Qaydaların 3.1-ci bəndində sadalanan məlumatlar Saytda dərc olunan vəkil reyestrində yerləşdirilir.

## 4. Kabinetlə bağlı Rəyasət Heyətinin vəzifələri

4.1. Rəyasət Heyəti vəkil və vəkil qurumu ilə arasında olan məlumat mübadiləsinin, vəkil qurumlarının rəhbərləri və fərdi qaydada fəaliyyət göstərən vəkillər tərəfindən təqdim olunmuş illik statistik hesabatların və vəkillərin iştirak etdikləri tədris tədbirləri ilə bağlı məlumatların konfidensiallığına zəmanət verir.
4.2. Saytda dərc olunmuş vəkil reyestrindəki məlumatlar açıq məlumat hesab olunur və üçüncü şəxslər tərəfindən istifadə oluna bilər.
4.3. Rəyasət Heyətinin aparatı Kabinetin proqram və texniki təminatı ilə bağlı məsələləri həll edir.
4.4. Rəyasət Heyəti vəkil tərəfindən Kabinet vasitəsilə təqdim edilmiş məqalələri dərc etmək öhdəliyi daşımır.

## 5. Digər müddəalar

5.1. Vəkil tərəfindən Kabinetə əlavə edilmiş şəkil vəkillərin xüsusi geyim formasında, ağ fonda və qarşıdan çəkilməlidir.
5.2. Vəkil yalnız peşəkar hüquqi xidmət göstərə bildiyi xarici dilləri Kabinetdə qeyd etməlidir.
5.3. Vəkil tərəfindən qeyd olunmuş, bu Qaydaların 3.1.9 və 3.1.10-cu yarımbəndlərində nəzərdə tutulmuş məlumatlar heç bir halda reklam xarakteri daşımamalıdır.
5.4. Bu Qaydalar yalnız Rəyasət Heyəti tərəfindən dəyişdirilə və ya qüvvədən düşmüş hesab edilə bilər.
5.5. Bu Qaydalar Saytda dərc olunduğu gündən qüvvəyə minir.